


شنبه 11 اردیبهشت 1395 - 01:00

# Rusiyada halal mhsullara tlbat tklifdn oxdur

Rusiya Mftilr urasnn iqtisadiyyat v maliyy maviri Mdin Kalmullina son tdqiqatlara gr, Rusiyada .halal mhsullara olan tlbatn istehsal stldiyini bildirib

**AranNews-** RİA Novosti agentliyinə müsahibə verən Kalımullina halal məhsulların yalnız müsəlmanların istehlak etmədiyini də qeyd edib. O, halal məhsulların istehsalı və satışının paytaxt Moskvadan uzaq olan rayonlarda hələ də inkişaf etmədiyini bildirib. "Həmin bölgələrdə halal məhsullar məscidlərin həyətlərində, ya da müsəlmanların açdıqları kiçik satış nöqtələrində .satılır", - deyə o bildirib

Kalımullina, eyni zamanda halal məhsullara böyük mağaza şəbəkələrindən də tələblərin gəldiyini bildirib. O, halal məhsullardan ən çox tələbatın ət məhsulları, pendir, konserv və şəkər məhsullarına olduğunu vurğulayıb. "Xüsusilə tez yeyilən halal məhsulların seçimi və təminatında .çətinliklərlə üzləşirik", - deyə o bildirib

Bu arada Tatarıstan Respublikası Müsəlmanları İdarəsi "Halal" məhsullar standartı komitəsinin .araşdırmasına əsasən, Rusiyada halal məhsulların istehsalı hər il 30-40% artır


قدرت گرفته از پرتال شمس - ITShams.ir